## JURNALISTİKA

**UOT 002.2(091)**

# HAŞIM BƏY VƏZİROVUN JURNALİSTİKAYA GƏLİŞİ

**Q.D.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***abid_tahirli@mail.ru***

*Məqalədə qeyd olunur ki, XX əsrin əvvəllərində Azərbaycanda istedadlı jurnalist və publisist ordusu yetişməkdə idi. Onlar yalnız Azərbaycan mətbuatının deyil, həm də mədəniyyətinin, ictimai fikrinin inkişafında mühüm rol oynayırdı. Belə hər tərəfli istedada malik olan səxslərin biri də Haşım bəy Vəzirov idi. O, Azərbaycan mətbuatında 1905-ci ildən-1916-cı ilə qədər fəal iştirak etmiş, onun inkişafında, formalaşmasında çox əməyi olmuşdur.*

**Açar sözlər:** Millətpərəst, vətənpərvər, publisist, müstəqillik, söz azadlığı, fikir azadlığı

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın mədəni həyatında, ictimai-siyasi, bədii-estetik fikrimizin inkişafında dövrün məşhur müəllimi, istedadlı jurnalisti, ictimai xadimi Haşım bəy Vəzirovun xüsusi xidmətləri olmuş və özünəməxsusluğu ilə seçilmişdir. Azərbaycan milli demokratik mətbuatının yaradıcısı, ictimai-siyasi xadimi M.Ə.Rəsulzadə onun haqqında yazırdı ki: "Haşım bəy fəal, savadlı, çalışqan, nəfsinə inanmış, qüvvətinə güvənmiş bir əhli-qələm idi" (5, 6). Otuz ilə yaxın ictimai fəaliyyətlə məşğul olan H.Vəzirovun həyatı, fəaliyyəti, ədəbi-bədii irsi sovet dövrü, elmi tədqiqatlardan kənarda qalmış və yaxud da "liberal, burjua ideoloqlu" (3, 20). Ideyaları təbliğ edən jurnalist kimi qələmə verilmişdi. Azərbaycan öz milli müstəqilliyinə yenidən qovuşarkən ölkədə yaranmış yeni abu-hava bir çox qaranlıqlara işıq saldı. Uzun illər millətinə düşmən kimi təbliğ edilmiş millətpərəst H.Vəzirovun həyatı, ədəbi irsi yenidən elmi tədqiqata cəlb edildi.

Haşım bəy Vəzirov Azərbaycan mədəniyyəti, maarifi tarixində çox tələbkar və məsuliyyətli müəllim, kəsərli söz sahibi, bacarıqlı naşir və ictimai xadim kimi tanınmaqla yanaşı, həm də dövrünün tanınmış istedadlı jurnalisti, publisisti idi.

O, XX əsr Azərbaycan mətbuatının inkişafı tarixində isə daha çox "Keyfim gələndə" başlığı ilə yazıb-yaradan istedadlı jurnalist, vətənpərvər publisist kimi yaddaşlarda qalmışdı.

H.Vəzirov mətbuatla fəaliyyətə hələ İrəvan Müəllimlər Seminariyasında tələbə olarkən "Kəşkül" qəzetindən başlamışdır. Tələbə Haşım bəy kiçik müxbir məqalələrində mollaxana və mədrəsələrin quruluşu, dərs proqramı, dərs demək qaydaları və başqa məsələlərdən bəhs edirdi.

Onun mətbuat aləminə gəlməsində sevimli müəllimi F.Köçərlinin bir pedaqoq və publisist kimi çox böyük köməyi olmuşdu. Belə ki, F.Köçərli tələbələrinə yalnız islam dininin tarixini, türk dili və ədəbiyyatını tədris etməklə kifayətlənmirdi. Həmçinin ədəbi yaradıcılıqla məşğul olanlara da kömək edirdi. H.Vəzirov "Cəfər, Əhməd və Karapet" mənzuməsini və "İnildəmə, əzizim" adlı birpərdəli pyesini də bilavasitə onun nəzarəti altında yazmış və onun köməkliyi ilə "Kəşkül" də çap etdirmişdi.

Onu da qeyd edək ki, F.Köçərli burada həmçinin seminariya pansionunun tərbiyəçisi vəzifəsində çalışırdı. O, dərslərdən sonra ədəbi yaradıcılığı olan tələbələrlə daha çox ünsiyyətdə olur, onlara dəyərli məsləhətlər verir, məqalə və əsərlərinin çapına köməklik edirdi. F.Köçərli həmçinin "Kəşkül"ün İrəvan müvəkkili olduğundan redaksiya ilə daha yaxın münasibəti var idi. Bir çox tələbələrin o cümlədən H.Vəzirovun da "Kəşkül"lə əməkdaşlıq etməsində onun rolu olub. Əksər tələbələrinin xüsusən də Haşım bəyin qəlbində özünə qarşı rəğbət hissi yarada bilən F.Köçərlinin onunla həyata baxışları, dünyagörüşləri eynilik təşkil edirdi. Hər ikisi dünyagörüşü etibarı ilə idealist idi. Elə Haşım bəydə tərcümə və teatr sahəsinə marağı da F.Köçərli yaratmışdı. Hətta İrəvanda Azərbaycan dramaturqlarının əsərlərinin dəfələrlə tamaşaya qoyulmasını təşkil etmişdir. Haşım bəyi F.Köçərliyə sevdirən cəhətlərdən biri də tələbəsinin son dərəcə bilikli, ciddi, intizamlı olması idi. Bir neçə illər sonra Haşım bəyi çar çinovnikləri tərəfindən Stavropola sürgün edilərkən bu xəbəri eşidən Firudin bəy çox sarsılmış və "İrşad" qəzetində "El üçün ağlayan gözsüz qalar" başlıqlı məqalə yazmışdı. F.Köçərlini daha çox məyus edən sürgünə məhkum olanın müəllim olması və onun millət yolunda göstərdiyi xidmətləri idi: "...Haşım bəy də belə müəllimlərdən biridir. Lakin bəzi bədniyyət və sahibi qərəzlər Haşım bəyin millət yolunda göstərdiyi xidmət və canfəşanlıqdan və camaatin əvvəl cənabə izhar qıldığı ehtiram və məhəbbətdən məyus və mükəddər olub onların qəlblərində atəşi-həsid və həsəd cuşa gəlibdir. Və yüz cürə vasitələr ilə o biçarəni ki, güdazə vermək fikrinə düşüblər" (5, 21). Əslində F.Köçərli Haşım bəyin sürgün edilməsinin səbəbini çox yaxşı bilirdi. Çünki Haşım bəy Şuşadakı vəziyyəti, çar çinovniklərinin müstəmləkəçilik siyasəti altında müsəlmanlara münasibətini Şuşadakı erməni məhəllərinin abadlaşmasını, müsəlman məhəllərinin xarabalığa çevrilməsini və s. bu məsələlər barədə dəfələrlə müəlliminə məktub yazaraq narahat olduğunu bildirmişdi. Yeri gəlmişkən qeyd edək ki, çar çinovniklərinin bu ayrı-seçkilik siyasəti yalnız Şuşada deyil, bütöv Azərbaycanda aparılırdı və aparılmaqdadır...

F.Köçərli daha sonra təəssüf hissi ilə yazırdı ki, “Haşım bəyin nahaq yerə sürgün olunmasına müsəlman qardaşlar da səbəb olmuşdu” (5, 21). Firudin bəy onları “nücəbalar” adlandırırdı:“Burası fənadır ki, onların bu növ fitnə-fəsadları ümumi işlərimizin tərəqqisinə mane olur və sair millət və vətən yolunda çalışan adamlarımızı soyudub süst eləyir”. Çarizmə sədaqətli nökərçilik edən ermənilər isə bundan yaxşı istifadə edir. Şair demiş “sapı özümüzdən olan baltalar” həmişə olub və olacaq da... Lakin nə “nücəbalar”ın haqsızlığı, nə də digər çətinliklər millətin sədaqətli, millətpərəst dəyanətli oğullarını Haşım bəyləri qorxutmadı. Əksinə, daha əzimkarlıqla, inadkarlıqla mübarizəyə qalxdılar. Hər kəs bir yolla, Haşım bəy də sözün qüdrəti ilə meydana atıldı. O, 1906-cı ildə mətbuata gəldi.

Bildiyimiz kimi, 1905-1906-cı illərdə baş verən ictimai-siyasi hadisələr Azərbaycan siyasi şüurunun təşəkkülündə mühüm rol oynadı. Bu haqda M.Ə. Rəsulzadə yazırdı: “Fəqət Rusiya inqilabi-sağirini təşkil edən 1905 sənəsi, Rusiya türkləri üçün milli inkişaf dövrünün ibtidasını təşkil eyləmişdir. Müəssisatı-ictimaiyyə ilə hüriyyəti mətbuat nöqteyi-nəzərindən bir parça müsaidat ilə nəticəpəzir olan bu inqilabdan istifadə bütün Rusiya türklərində olduğu kibi Azərbaycan türklərində də sürətli bir hərəkəti-milliyə başladı” (1, 4).

Məhz bu oyanmaların, bu dərketmələrin nəticəsi idi ki, Azərbaycan xalqı da təşkilatlanır, özünün ictimai-siyasi təşkilatını yaradır, azadlığın zəruri bir amilə çevrildiyini duyub hiss edirdilər. Bu zaman Azərbaycanın ictimai, siyasi, tarixi, mədəni həyatında yeni dövr kimi xarakterizə olunan XX əsrin əvvəlləri bütün fəaliyyət sahələrində olduğu kimi mətbuatda da əsaslı dəyişmələrə səbəb oldu.

Görkəmli tədqiqatçı alim D.Seyidzadə 1905-ci ili haqlı olaraq milli siyasi mətbuatın təşəkkül ili hesab edərək yazır ki; “Mətbuat milli mənlik şürunun formalaşması, ümummilli vəzifələrin təbliği, əhalinin siyasi səviyyəsinin yüksəldilməsi üçün əzmlə mübarizə aparırdı” (6, 74).

1906-cı ilin sonunda sürgündən azad olan Haşım bəy əvvəl Şuşaya gəlir. Bunu eşidən Ə.Ağaoğlu onu Bakıya, “İrşad”la əməkdaşlığa çağırır. Artıq Şuşada yaşamaq da Haşım bəy üçün çətin idi. Ona görə də bu dəvəti qəbul edərək Bakıya köçür və “İrşad”la əməkdaşlığa başlayır. Hətta Ə. Ağaoğlunun Peterburq səfəri ilə əlaqədar “qəzetin on beş nömrəsinə redaktorluq da edir” (5, 15).

Lakin “İrşad”a qədər Haşım bəy bir publisist kimi artıq tanınmaqda idi. O, doğma dilində mətbuat orqanının olmadığı dövrdə publisist yazılarını rus dilli mətbuatda Bakıda “Kaspi”, Tiflisdə “Kafkaz”, “Novoe obozrenie” qəzetlərində müntəzəm surətdə dərc etdirirdi. Ona görə də “İrşad”la əməkdaşlıq Haşım bəy üçün çətin olmadı. Əksinə o, burada dövrünün ən nüfuzlu qələm sahibləri ilə təmasda oldu. M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ü.Hacıbəyli, Ə.Topçubaşi, H.Zərdabi, Ə.Müznib və başqaları ilə yaradıcılıq əlaqələri, onlardan öyrənmək, mütəmadi ünsiyyətdə olmaq Haşım bəyin həm yaradıcılığına, həm də dünyagörüşünə çox böyük təsir etdi. Bakıda baş verən ictimai-siyasi hadisələr onu jurnalistikaya daha sıx bağladı. Tez bir zamanda

Bakıda nəşr olunan qəzet və jurnalların əksəriyyəti ilə əməkdaşlıq etməklə yanaşı sərbəst qəzet, jurnal çıxarmaq üçün səylər göstərdi. Bir sözlə, Haşım bəyin Bakıya gəlişi mətbuat, mədəniyyət, maarif sahəsində hərtərəfli özünü büruzə verməyə başladı. Dövrü mətbuat da buna biganə qalmadı.

"Dirilik" jurnalı Haşım bəyin "İrşad" qəzetində iştirakı haqqında belə yazırdı: "Sürgündən qayıtdıqdan sonra möhtərəm Haşım bəy "İrşad" qəzetində bir qədər iştirak etmiş, məzkur qəzetdə "Seyid Haşım Vəzirov" imzası ilə hər kəsin təhsin və təqdirinə möcəb olacaq atəşin məqalələr yazmış və yazdığı məqalələrinə o vaxtın ərbab qələmi təkrar-təkrar təqvit yazmışdır" (3, 32).

"İrşad"dakı fəaliyyəti ilə H.Vəzirovun professional jurnalistlik fəaliyyəti başlayır. Beləliklə də, 1906-cı ildən 1916-cı ilədək Azərbaycan dövri mətbuatının inkişafında müstəsna rolu olan H. Vəzirov müxtəlif mətbu orqanlarında mütəmadi çıxış edərək cəmiyyətin diqqətini qismən də olsa cəlb edə bilmişdi.

H.Vəzirov "İrşad"ın redaktoru olduğu zaman qəzetin nəşri prosesi ilə də yaxından tanış olur. Sonra o, müstəqil qəzet çıxarmaq fikrinə düşür. Və bu münasibətlə rəsmi dairələrə Bakı Bələdiyyə İdarəsi rəisinə rəsmi şəkildə müraciət edərək "Tazə həyat"ın çapına icazə istəyir. Təbii bu işdə Haşım bəyə Hacı Zeynalabdin Tağıyevin  çox böyük köməyi olur.

İrticanın hökm sürdüyü, senzuranın, ümumiyyətlə, mətbuat, nəşriyyat, xüsusən türk mətbuatı və nəşriyyatı üzərində ciddi nəzarətin mövcud olduğu bir zamanda  H.Vəzirov "Tazə həyat"ın nəşrinə icazə alıb çapına başlayır (5, 19).

"Tazə həyat"ın qarşısına qoyduğu vacib məsələlərdən ən başlıcası müsəlmanları düşdükləri faciəli vəziyyətdən çıxarmağa xidmət etməkdən ibarət idi. H.Vəzirov bu münasibətlə yazırdı: "Bizim müsəlmanlar bu halda hamı millətlərdən, hamı insanlardan artıq məzlum, artıq məqhurdur. Ona görə də biz hər şeydən qabaq nöpərəstliyin hər şöbəsindən əvvəl bu fəlakətə yaxın, bu məzlumluğun ən təhlükəli dərəcəsinə çatmış millətə hələlikdə ancaq bir tək buna xidmət etməyi, qayğıkeş olmağı özümüzə fərz bilirik. Bu tərzə görə də biz özümüzü millətpərəstlər silkindən  hesab edirik" (5, 19).

Beləliklə, siyasi, ictimai, iqtisadi və ədəbi qəzet olan "Tazə həyat"ın birinci sayı 1907-ci ilin aprel ayının 17-də işıq üzü gördü. Gündəlik çıxan qəzet "Məsləkimiz" adlı baş məqaləsində öz məqsəd və məramını belə açıqlayır: "Məkkə kimi bir kənar və balaca yerdən ucalan mövhud kəlməsinə Çindən, Hinddən, Çava Çəzirəsindən, Qafqazın qarlı-buzlu dağlarından, Sibiryanın donmuş torpağından, Misirdən, Avropanın Alp dağlarının ətəklərindən ləpbək əssi gəliyor. Sübhanallah! Bu din, bu təriqət, bu həqiqət aləmi tutmağı asan əmrlərdən, əncam tapmış işlərdən birisidir. Bu yolda qulluq edənlər o qədər saf, sadiq, mərdanə, sabit, xalis və pək şəxslər, o qədər şəxsi-qərəzdən nöqsaniyyət və xudpəsəndlikdən uzaqdırlar ki, bunların hərəkətinə cəmi kainat hamısı bir yerdə müxalifət edə bilməz" (5, 20).

Yeri gəlmişkən, qeyd edək ki, Haşım bəy bu məqsədinə yalnız "Tazə həyat"da deyil, bütün jurnalistlik-naşirlik fəaliyyətində, ömrünün sonuna qədər sadiq qalmışdır. O, "Taza həyat"ın ətrafına istedadlı qələm sahiblərindən

M.Ə.Sabir, M.Hadi, Ə.Müznib, H.İ.Qasımov, T.Şahbazi, B.Abbaszadə və başqalarını toplamışdır. Onlar ədəbi, ictimai-publisist əsərləri ilə "Tazə həyat"da çıxış edirdilər. Qəzetin "1907-ci il aprelin 1-dən dekabrın 31-dək 209, 1908-ci ildə isə 230 sayı nəşr edilib" (2, 54).

1908-ci ilin sentyabr ayında Bakı general-qubernatorunun əmrilə "zərərli istiqamətinə görə" "Tazə həyat"ın nəşri dayandırılıb.

"Tazə həyat" bağlandıqdan təxminən bir ay sonra H.Vəzirov yeni qəzet çıxarmaq üçün Bakı qradonaçalniki, general-mayor Falbauma müraciət edir. Bu dəfə o qəzetin adını "İttifaq" qoyur və 1908-ci il noyabr ayının 19-da nəşrin icazəsini alır. Həmin il dekabr ayının 1-də "İttifaq"ın birinci sayı çap olunur. Siyasi, ictimai və ədəbi orqan olan qəzet hər gün Orucov qardaşlarının mətbəəsində işıq üzü görürdü. Qəzetin nəşri 1909-cu ilin oktyabr ayının əvvəllərinə kimi davam edir.

H.Vəzirov digər mətbu orqanlarında olduğu kimi "İttifaq"da da həm açıq, həm də gizli imzalar ilə çıxış etmişdi. O, oxuculara yaxşı tanış olan "Keyfim gələndə"lərini gizli, "Birisi" imzası ilə yazır, başqa məqalələrində isə sadəcə olaraq "H.Vəzirov" yazırdı. Ədib gizli imzalarla daha çox 1914-1915-ci illərdə Bakıda çap etdiyi "Məzəli" adlı satirik jurnalda çıxış etmişdi. Lakin "Məzəli"dən əvvəldə başqa satirik jurnallarla əməkdaşlıq edən publisist "Mirat"ın birinci sayında "Dərviş" imzası ilə çap olunmuş. "Ərzi-hal" adlı felyetonunda Azərbaycanın daxili vəziyyətindən, onun ağır maddi-iqtisadi həyatından bəhs edilmişdi.

"Məzəli"nin 25-ci sayına qədər həm naşiri, həm də redaktoru H.Vəzirov olub. 25-ci sayından sonra isə Hacı İbrahim Qasımov müvəqqəti müdir, Haşım bəy Vəzirov isə naşir olub. 37-ci saydan yenədə müdir və naşir H. Vəzirov olub(3.s.45).

Bəzi mənbələrdə qeyd edilir ki, "Məzəli" jurnalının çıxarılması fikri 1911-ci ildə yaranmışdı. Hətta 1911-ci il sentyabrın 23-də Bakı şəhər bələdiyyə rəisi H. Vəzirova "Məzəli" jurnalını çıxarmaq üçün 20225-saylı şəhadətnamədə vermişdi (3, 56). Lakin, bu günə kimi mətbuat aləminə məlum olmayan səbəbdən "Məzəli" 1911-ci ildə çap edilə bilməmişdi. Jurnalın 1914-cü il dekabrın 17-dən 1915-ci il oktyabrın 17-dək 42 sayı nəşr edilmişdi. H.Vəzirov jurnalın ətrafına bir neçə görkəmli mollanəsrəddinçi Ə.Əzimzadə, Ə.Nəzmi, Ə.Qəmküsarla yanaşı C.Cabbarlı, Ə.Müznib və C.Əsgərzadəni də cəlb edə bilmişdi. "Məzəli" tərtibat etibarı ilə o zaman Bakıda çıxan başqa satirik jurnallara nisbətən mükəmməl olması ilə fərqlənirdi. Müharibə şəraiti olmasına baxmayaraq, jurnal yüksək səviyyədə çap olunurdu. Dörd səhifəsi şəkilli çıxan jurnalda rəsmlərin demək olar ki, əksəriyyəti məşhur rəssam Ə.Əzimzadəyə məxsusdu. O zaman dövrü mətbuat orqanlarında qəbul edilən ənənəyə görə jurnal və qəzetlər birinci sayda öz proqramlarını elan edirdilər. "Məzəli"nin birinci sayında "Yolumuz" adlı baş məqaləsində, özünün siyasi-ictimai məsləkini oxucularına bəyan edirdi. Bu məqalədə H.Vəzirov dövr üçün xarakterik olan siyasi-ictimai məsələləri kəskin şəkildə tənqid edirdi.

**ƏDƏBİYYAT**

1. Rəsulzadə M. Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 114 s.
2. Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqatlar (XIX- XX). Bakı: Maarif, 1983, 300 s.
3. Axundov N. Azərbaycanda satira jurnalları (1906-1920-çi illər). Bakı: Maarif, 1968, 270 s.
4. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Elm, 1956, 310 s.
5. Vəzirov H. "Geyfim gələndə". Bakı: Gənclik, 2001, 200 s.
6. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı: Elm, 2004, 320 s.

## ПРИХОД ГАШИМБЕКА ВЕЗИРОВА В ЖУРНАЛИСТИЧЕСКУЮ ДЕЯТЕЛЬНОСТЬ

**Г.Д. ГУЛИЕВА**

**РЕЗЮМЕ**

В течение 1905-1907 годов обострение социальных конфликтов, нарастающее недовольство социальных слоёв создавали объективные условия для усиления политической и идеологической активности всех слоёв азербайджанского общества.

Азербайджанский народ поднялся на напряженную борьбу за своё национальное самоопределение. Безусловно на переднем плане этой борьбы находились мастера слова азербайджанского народа. Один из них был известный молланасраддиновец Гашим бек Везиров.

**Ключевые слова:** националист, патриот, публицист, независимость, независимость речи, независимость размышления

## HASHIM BAİ VAZIROV'S JOURNALISM

**G.D.GULIYEVA**

**SUMMARY**

The Azerbaijani people began to stuggle for their self-determination. Naturally, the Azerbaijani masters of word were always in front lines and a well-known follower of "Mullah Nasreddin" Hashimbai Vazirov was one of them. H.Vazirov devoted his publisistic activity to ignorance, prejudice, and injustice.

**Key words:** Nationalist, patriot, publicist, independence, freedom of speech, freedom of conscience